European Commission

# Avropa İttifaqına üzvlük prosesi
## mərhələli şəkildə

İyun 2022
#EUenlargement

Etimada əsaslanan genişlənmə siyasəti Avropada **sülh**, **sabitlik**, **təhlükəsizlik** və **rifaha** yatırılan geostrateji sərmayədir. O, ədalətli və ciddi şərtlərə və namizəd ölkələrin konkret nailiyyətlərinə əsaslanır. Bu siyasət namizəd ölkələrdən qanunun aliliyi, iqtisadiyyat, korrupsiya və mütəşəkkil cinayətkarlıqla mübarizə kimi bir çox sahələrdə hərtərəfli islahatların həyata keçirilməsini tələb edir. Anlaşma, mehriban qonşuluq münasibətləri və regional əməkdaşlıq böyük əhəmiyyət kəsb edir.

## Avropa İttifaqına üzvlüyə dair əsas mərhələlər

**1** Ölkə üzv olmaq üçün Şuraya (Aİ-yə Üzv Dövlətlər) müraciət edir.

**2** Komissiya müraciət ilə bağlı öz Rəyini təqdim edir.

**3** Aİ-yə Üzv Dövlətlər yekdilliklə ölkəyə namizəd statusunun verilməsi barədə qərar qəbul edirlər.

**4** Ölkə tərəfindən şərtlər yerinə yetirildikdən sonra bütün Üzv Dövlətlərin razılığı ilə üzvlüyə dair danışıqlara başlanır.

**5** Komissiya danışıqlar çərçivəsinin layihəsini təklif edir və bu çərçivə Üzv Dövlətlər ilə razılaşdırılır.

**6** Qruplar və bölmələr üzrə strukturlaşdırılmış danışıqlar zamanı ölkə Aİ-nin qanun və standartlarının tətbiqinə hazırlaşır. Bütün Aİ-yə Üzv Dövlətlər bütün tələblərin yerinə yetirildiyini təsdiq etməlidirlər.

**7** Bütün sahələr üzrə danışıqlar başa çatdıqdan sonra Komissiya həmin ölkənin Üzv Dövlət olmağa hazırlığına dair Rəyini təqdim edir.

**8** Bu Rəyə əsaslanaraq Aİ-yə Üzv Dövlətlər yekdilliklə danışıqlar prosesinin başa çatdırılmasına dair qərar verirlər. Avropa Parlamenti də öz razılığını verməlidir.

**9** Bütün Aİ-yə Üzv Dövlətlər və namizəd ölkə bu ölkənin Aİ-yə üzvlüyünü təsdiq edən Üzvlük müqaviləsini imzalayır və ratifikasiya edirlər.